Elm və İnnovativ Texnologiyalar Jurnalı Nömrə 24, 2022.52-66
DOI: 10.30546/2616-4418.24.2022.52

# GƏNCƏDƏ ŞƏHƏR MƏDƏNİYYƏTİNİN ÖYRƏNİLMƏSİNDƏ MƏHƏLLƏLƏRİN ƏHƏMİYYƏTİNƏ DAİR

**Elnur HƏSƏNOV**
*AMEA Gəncə Bölməsi, Gəncə, Azərbaycan*

**: https://orcid.org/ 0000-0001-6358-593X**

## Giriş

Qədim elm və mədəniyyət mərkəzi olan, ən azı beş dəfə yerini dəyişmiş Gəncə şəhərində tarixi şəhərsalma vahidləri olan məhəllələr mahiyyəti etibarilə icma münasibətlərini özündə cəmləşdirirdi. Məhəllə sözü burada “məhlə” formasında bir qədər məhdud mənada – yaşayış evinin həyəti, həyətyanı sahə anlamında işlədilir. Bir məqamı qeyd etmək lazımdır ki, məhəllələri daha kiçik şəhərsalma vahidləri hesab edilən meydan, küçə, döngə və sair ilə qarışdırmaq olmaz. Gəncənin baş meydanı (“Bazar meydanı”) istisna edilməklə məhəlli meydanlar, küçələr, döngələr, “cərgələr” məhəllənin tərkib hissələrini təşkil etmişdir. Gəncədə məhəllələrə “basalax” (basalaq) da deyilir ki, bu da mahiyyəti etibarilə məhəllə məfhumunun dialekt ifadəsidir.

CC BY NC ND

Tarixi-arxeoloji məlumatlara əsaslanaraq Gəncədə antik dövrdən etibarən məhəllələrin təşəkkül tapdığını, ilk orta əsrlərdə inkişaf edərək ərazicə genişləndiyini qeyd etmək mümkündür. Dulusçular, Şərbaflar, Boyaqçılar, Dəmirçilər, Misgərlər, Şüşəçilər, Bağbanlar, Qəssablar, Zərrabi, Əllaflar, Dabbaqlar, Səbzavad, Ozan, Ərəbli, Əttarlar kimi məhəllələr şəhərin qədim ərazisində yaranaraq uzun müddət ərzində mövcudluğunu qoruyub saxlamışdır. Yuxarıda sadaladığımız məhəllələrdən başqa İmamlı, Sofulu, Xərabat, Sərraclar, Sarvanlar, Seyidlər, Məstçilər, Çölək, Xasa yeri, Gavurküçə kimi məhəllələr yaranmışdı. Mənbələrdə və elmi ədəbiyyatda olan müxtəlif səciyyəli məlumatları təhlil edərək ilk orta əsrlər dövründən etibarən Gəncədə Tuyuğçu, Qacarlar, Qaramanlı, Xəlfəli, Şərəfxanlı, Təbrizli, Şatırgörən, Allahdad, Şöylü-bəyli, Arazbar, Daylaqçılar, Dəlləklilər, Nöyüdçülər, Sadıllı, Xocalı, Şamlı adlanan yaşayış məhəllələrinin mövcud olduğu üzə çıxır (Əhmədov, 2007, 158-164).

Qeyd etmək lazımdır ki, XVII əsrə qədər Gəncə məhəllələrinin tarixi ilə bağlı ticarət və sənətkarlığa dair mənbələrə, əhalinin yerdəyişmələrinə aid məlumatları əks etdirən tarixi məxəzlərə, ayrı-ayrı hökmdarların köçürmə siyasətləri və bu bölgədəki demoqrafik proseslər barəsində fərqli qaynaqlara istinadən məlumatlar əldə etmək mümkündür. Gəncənin sonuncu - təqribən beşinci dəfə köçürülməsindən sonrakı dövr ilə bağlı (XVII əsrdən sonrakı mərhələ nəzərdə tutulur – E.H.) toplanmış çoxsaylı məlumatlar məhəllələrin tarixi ilə bağlı məqamları daha geniş, ətraflı şərh etməyə imkan verir. Şəhərin sayca beşinci olan son yerdəyişməsindən sonra qədim Gəncənin İmamlı, Sofulu, Zərrabi, Bağbanlar (Bala bağban adı ilə), Ozan, Səbzavad, Dəmirçilər, Tuyuğçu, Ərəbli, Şərbaflar, Xəlfəli, Allahdad, Arazbar, Əllaflar, Dabbaqlar, Qəssablar, Nöyüdçülər, Sarvanlar, Şatır-görən, Şöylü-bəyli, Xocalı, Şamlı, Qaramanlı, Şərəfxanlı, Seyidlər, Sərraclar və b. kimi məhəllələri şəhərin yeni ərazisinə köçmüşdü. Bu fikri həm də adlarını çəkdiyimiz məhəllələrin əsas etibarilə şəhərin tarixi nüvəsində – İçqala və Şah Abbas meydanı ətrafında yerləşmələri sübut edir. Bununla bərabər, müxtəlif səbəblərdən (məhsuldar qüvvələrin inkişafı, şəhərin hərbi əməliyyat meydanına çevrilməsi, orta əsrlər dövrünün iki qüdrətli dövləti olmuş Səfəvilərin və Osmanlıların fasiləsiz müharibələri və s.) bir çox məhəllələr artıq tədricən sıradan çıxırdı. Bu prosesdə bir tərəfdən şəhərin köksündən silinən məhəllələrin yerində və ya onlarla yanaşı yeni məhəllələr yaranırdı ki, bunlara nümunə kimi Şahsevən, Tatabad, Səfərabad, Qırıxlı, Todanlı, Tapqışlaq, Çaylı, Mollacəlilli, Dördyol, Xanlıqlar, İyirmidörd, Çələbyurd, Kilsəkənd, Alacanlı, Qırxkilimçili, Sutökülən, Mülkədarlılar, Cəhirli və digərlərini qeyd etmək olar. Bunların əksər qismi Gəncə şəhəri yerini növbəti - beşinci dəfə dəyişərkən yaranmış məhəllələr idi. Onların bəziləri I Şah Abbas tərəfindən köçürülmüş, digərləri sürətlə tərəqqi edən şəhərin ərazisinə sirayət etmiş, bir qismi isə yeni əraziyə köçürülmüş şəhərin ərazisində əvvəllər mövcud olmuş kəndlərin tədricən genişlənən Gəncəyə qarışıb onun tərkibində "ərimәsi" nəticəsində formalaşmışdı (ARMAİDA, s. 5; Əhmədov, 2007, s. 160-163).

Son orta əsrlər dövründən, xüsusilə XVIII əsrdən etibarən Gəncə şəhərində Qazaxlar, Qızıl Hacılı, Şabanlı, Talalı, Xödəkli, Yanallar, Daşdəmirli, Mahmudlu, Noraşen, Kərki və digər məhəllələr təşəkkül tapmışdır. Gəncə xanlığının Rusiya tərəfindən xəyanətlə işğal edilməsindən sonrakı dövrdə (XIX əsrin əvvəllərindən) Təbrizli, Qaramanlı, Şamlı, Şatır-görən, Arazbar, Allahdad, Şöylü-bəyli və s. məhəllələrin adları tədricən işlənilmir və zaman keçdikcə unudulur. Artıq şəhərdə bu dövrdə Hacıməlikli, Xan bağının ərazisində Molokanlar, Mollacəlillidə Azadlılar, Səbzavadın ərazisində isə Əzimbəyli və digər ərazi vahidləri yaranır. Bu proses 1905-ci ilin sonlarına kimi davam edir və həmin ilin noyabrında Gəncədə yerli əhaliyə qarşı rus-erməni hərbi təcavüzündən sonra sağ sahildəki Mollacəlilli məhəlləsinin yerli türk-müsəlman (Azərbaycanlı) əhalisi sol sahilə (Dördyol və İmamlı məhəllələrinin yaxınlığına), Noraşen erməniləri isə əks istiqamətə köçmüşlər.

Qərbi Azərbaycan (indiki Ermənistan) ərazisindən 1918-ci ildə didərgin düşmüş soydaşlarımız Gəncə şəhərinə pənah gətirərək Quru qobu adlanan ərazinin yaxınlığında yerləşdirilirlər və burada Yeni İrəvan məhəlləsi yaranır. Nəhayət, 1920-ci il may üsyanının yatırılmasından sonra şəhər etnik prinsip üzrə Gəncə çayı ilə iki hissəyə bölünmüşdür və artıq XX əsrin əvvəllərindən məhəllələr şəhərin ictimai həyatındakı əvvəlki mövqelərini nəzərə çarpacaq dərəcədə itirirdi. Onların hələ XIX əsrin ikinci yarısından etibarən başlanan tənəzzülü həmin dövrdə xeyli sürətlənmişdi. Bunu ötən əsrin 20-ci illərinin sonlarında Gəncəbasar kəndlərindən köçüb şəhərdə yerləşən Aşıqlar (Şahsevənlər məhəlləsi ilə Şərəfxanlı arasında), Çıraqlı (Böyük Bağban yaxınlığında) küçələrində müşahidə edirik. Sonrakı iri miqyaslı demoqrafik proseslər və yeni sənaye müəssisələrinin tikilməsi nəticəsində Gəncədə yaranmış yeni yaşayış massivləri məhəllə kimi yox, şəhər tipli kiçik qəsəbələr kimi formalaşmışdır. Qeyd etmək lazımdır ki, 1948-1951-ci illərdə Qərbi Azərbaycandan (indiki Ermənistan ərazisindən) köçürülən əhalinin yerləşdirildiyi "Dəmiryolu" ərazisindəki qəsəbə istisna edilməklə digər yaşayış qəsəbələrinin heç birində məhəlli-icma münasibətlərinin əsas səciyyəvi əlamətləri müşahidə edilməmişdir (Ахмедов, 1990, s. 3).

Beləliklə, ictimai-siyasi həyatda baş verən köklü dəyişikliklər nəticəsində Gəncə məhəllələri şəhər əhalisinin maddi, mədəni və ictimai həyatında dərin izlər qoyaraq tarixə qovuşdu. Yaşayış məhəllələrinin öz əvvəlki mahiyyətini itirməsi tarixən obyektiv proses olmuşdur və şəhərdə icma münasibətlərinin tədricən sıradan şıxması şərtlənmişdir. Gəncənin yaşayış məhəllələrinin adları onların yerləşdiyi hissələrdəki əsas küçələrin adlarında 1928-1937-ci illərə kimi qalmaqda idi. Lakin zaman keçdikcə onların demək olar ki, hamısı zaman-zaman dəyişdirilmiş, başqa adlarla əvəz olunmuşdu(Ахмедов, 1991, s. 3). Amma 2010-2021-ci illər ərzində Gəncənin tarixən mövcud olmuş və ümumi sayı 100-dən artıq olan tarixi məhəllərinin əksəriyyətinin adları şəhərin müxtəlif küçələrinə verilərək əbədiləşdirilmişdir (Hasanov, 2021, s. 146-149).

## Tədqiqatın mənbəyi və üsulları

Tədqiqatın əsas mənbəyini Gəncədə şəhər mədəniyyətinin mühüm göstəricisi qismində çıxış edən məhəllələrin tarixinə dair çoxsaylı sənədlər, arxiv materialları, yazılı elmi mənbələr (yerli və xarici alimlərin əsərləri), həmçinin çöl tədqiqatlarının nəticələrininə dair məlumatlar təşkil edir.

Mövzunun araşdırılmasında tarixi mənbələr, yazılı sənədlərlə yanaşı, şəhərin yaşlı sakinlərinin hafizəsində qorunub saxlanılmış dəyərli məlumatların çoxsaylı sorğular əsasında elmi təhlili aparılmışdır. Söyləyicilərin şifahi olaraq ifadə etdikləri fikirlər təsnif edilmiş, sistemləşdirilmiş, anketləşdirmə üsulundan istifadə edilmiş, tədqiqatın etibarlılıq dərəcəsinin yüksəldilməsinə şərait yaradan və müasir dövrümüzə qədər şəxsi kolleksiyalarda qorunub saxlanılmış müxtəlif foto şəkillərin və yazılı sənədlərin surətləri çıxarılmışdır.

Tədqiqat işində tarixi inkişaf xüsusiyyətləri, şəhər mədəniyyətinə məxsus səciyyəvi cəhətləri öyrənilmiş İmamlı məhəlləsi Gəncənin qədim şəhərsalma vahidlərindən biri hesab edilir. Bu çoxəsrlik tarixi irsə sahib məhəllənin təməlinin beşinci imam Məhəmməd Bağırın oğlu İbrahimin zamanında (vəfat tarixi – 739/740) qoyulduğu məlumdur. Məhəllənin adı imamlardan olanlar mənasını verir. “İmam” ərəb sözü olub peyğəmbərin xəlifələrinə inananlar mənasını ifadə edir (Hasanov, 2018, s. 5). Bir məqamı xüsusi qeyd etmək lazımdır ki, eyniadlı məhəllələr ilk orta əsrlər dövründə Azərbaycanın qədim şəhərlərindən hesab edilən Şamaxı və Bərdədə də mövcud olmuşdur (Muradov, 1983, s. 136). İmamlı məhəlləsinin ərazisi şimaldan Molla Cəlilli (1905-ci ildən sonra), şərqdən Mürsəl ocağı qəbiristanlığı, cənub istiqamətindən Əttarlar, qərbdən isə Şah Abbas meydanı və Dördyol məhəllələri ilə əhatə olunmuşdu. Məhəllənin ərazisi indiki Vaqif, Əttarlar, qismən İ.Məmmədov küçələri ilə Nizami prospekti I-III döngələrinin ərazilərini əhatə etmişdir (Əhmədov, 2007, s. 173-176; Hasanov, 2018, s. 24-29, 57-58, 87).

İmamlı məhəlləsinin sakinləri ticarət, sənətkarlıq (əsasən boyaqçılıq, şərbafçılıq, dulusçuluq) və xırda xidmət sahələrində (pirkeşiklik, odabaşılıq, arabaçılıq və s.) çalışırdılar. 1804-cü ilin mayında burada otuz doqquz ev, iki yüz iyirmi altı nəfər (yüz doqquz nəfər kişi və yüz on yeddi nəfər qadın) əhali qalmışdı. XX əsrin əvvəllərində İmamlıdakı ailələrin sayı doqquz yüz səksən nəfərə çatmışdı. Məhəllə ağsaqqallarından Məşədi Hüseynqulu Bağır oğlu, Kərbəlayi Həsən Hacı Seyid oğlu, İbrahim Usub oğlu, Kərbəlayi Həmzə Hacı Hüseyn oğlu İmamlının ictimai həyatında əsas mövqeyə malik idilər. İmamlı məscidi məhəllənin sayılan nəsillərindən birinin başçısı Hacı Saatlının vəsaiti hesabına tikildiyindən «Hacısaatlı məscidi» də adlandırılırdı. Məhəllənin üzüm bağları, əsasən Gəncə çayının sol sahili boyunca salınmışdı. Onların suvarılması və İmamlının su təchizatı Karxana arxının və Seyid kəhrizinin hesabına həyata keçirilirdi (Muradov, 1983, s. 136).

İmamlı məhəlləsində üç ictimai hamam fəaliyyət göstərmişdir ki, bunlardan biri kişilər üçün Hacısaatlı hamamı (indiki Cavad xan və Nizami küçələrinin kəsişdiyi yerin şərq istiqamətində), qadınlar üçün Hacı Xeyransa hamamı (indiki Vaqif küçəsində) və nəhayət, iki hissədən ibarət – Xas hamamı. Xas hamamı İstanbul hamamları kimi «qoşa hamam»lar tipinə, yəni simmetrik xətlə ikiyə bölünmüş qadın və kişi hamamları tipinə aid olmuşdur (Фатуллаев, 1986, s. 189). Hamamın adının mənşəyinə dair fikirlər ziddiyyətlidir. Gəncənin ağsaqqal sakinlərinin mülahizəsinə görə, bu hamam əziz gün olan xas günündə (əvvəllər həftənin günləri şənbə, bazar, tək, xas, çərşənbə, adna, cümə adlanırmış) işləmədiyinə görə belə adlanırmış. Ağbirçəklər isə hamamın adının onu işlədən qadının ismi ilə bağlı olduğunu söyləyirdilər. Ehtimal ki, XVIII əsrdə yerli bəylərdən hansınınsa xas mülkü olan yerdə bu hamam inşa edilmiş, yeni hamam həmin mülk formasının adına uyğunlaşdırılmışdır. Rusiya imperiyası tərəfindən Gəncə xanlığı xəyanət yolu ilə işğal edilənə qədər hamamın Cavad xana mənsub olması da belə mülahizə etməyə əsas verir (Əhmədov, 2007, s. 158-164).

Vaxtilə müstəqil məhəllələr olan Dulusçular, Şərbaflar və Boyaqçılar XVIII-XIX əsrlərin qovşağında tədricən İmamlı məhəlləsinin tərkibində kiçik küçələr halında qalmışdılar. Onların içərisində Boyaqçılar məhəlləsi daha uzunömürlü olmuş, 1891-ci ildə Gəncədə Biyan kökü zavodu tikilənə qədər öz adını və əhatə etdiyi ərazini qoruyub saxlaya bilmişdi (Muradov, 1983, s. 136-137).

Gəncə ətrafında təbii halda yetişən qızıl boya və biyan bitkilərinin köklərindən yerli əhali hələ çox qədim zamanlardan boyaq maddəsi alaraq bu boyaqla ipək, pambıq parça, bez materiallarını müxtəlif rənglərə boyayırdılar. Nəinki Gəncədə, həm də şəhərdən çox-çox uzaqlarda böyük şöhrət qazanmış göy, tünd göy, tünd boz, yaşıl, açıq mavi, zoğalı rəngli ipək parçalara dünya bazarlarında tələbat boyaqçı sənətkarların xidməti idi. Kapitalist münasibətlərinin inkişafı boyaqçılıq sənətinin inkişafına mənfi təsir göstərərək Gəncə sənətkarları içərisində Boyaqçıların mövqelərini xeyli zəiflətmişdi. 1872-ci ildə burada iyirmi dörd boyaqxana olduğu halda, 1897-ci ildə cəmi altı boyaqxana qalmışdı və məhəllə sakinlərinin bir hissəsi həm də ticarətlə məşğul olurdular. Onlar qızıl boya kökünü yükləyib Tiflisə, Şuşaya, Nuxaya, İrəvana aparırdılar (Сумбатзаде, 1964, s. 369-370).

Şərbaflar məhəlləsinə gəldikdə isə, qeyd etmək lazımdır ki, bu tarixi məhəllə "Boyaqçılar"dan şərq istiqamətdə yerləşirdi. Şərbafların toxuduqları ipək parçalar çox zaman onların özü tərəfindən də boyanırdı. Ona görə bu iki sənət yönümlü məhəllə bir-biri ilə qonşuluqda salınmışdı. Xanlıqlar dövründə Karxana arxının üstündə üç yüz yetmiş beş dəzgahlıq böyük İpək karxanası fəaliyyət göstərmişdir. XX əsrin əvvəllərində tənəzzülə uğrayan şərbafçılıq 70-80-ci illərdə öz əvvəlki mövqeyini qismən qaytarmağa müvəffəq olmuşdur. 1898-ci ildə artıq manufaktura üsuluna keçmiş şərbafların Gəncədə cəmi səkkiz emalatxanası olmuşdur ki, burada

da altmış iki işçi (fəhlə) çalışmışdır (Əhmədov, 2007, s. 177-179; Сумбатзаде, 1964, s. 92, 137).

Şərəfxanlı məhəlləsi Gəncənin "Şəhristan" hissəsinin hüdudlarında salınmışdı. O, şərti olaraq şimaldan Şahsevənlər və Noraşen, qərb istiqamətindən Quru qobu, Aşağı Qarammədli, Tapqışlaq, cənub tərəfdən Qazaxlar, Şabanlı, Xan bağı, şərqdən isə Ozan və Qaramanlı məhəllələri ilə sərhədlənirdi. Gəncənin yaşlı sakinlərinin söylədiklərinə görə, bu məhəllənin keçmiş sakinləri Teymurləngin qız nəvəsi, Çingiz törəməsi Şərəfxanın nəslindən olmuşlar. Xalq yaddaşının verdiyi bu bilgiyə əsaslansaq, onda Şərəfxanlı məhəlləsinin Gəncədə məskunlaşmasını XIV əsrə aid etmək olar. XX əsrin əvvəllərində artıq Şərəfxanlıda altı yüz nəfərə qədər əhali yaşayırdı və onların əsas məşğuliyyəti bağçılıq, üzümçülük, qoyunçuluq imiş. Şərəfxanlı məscidi günbəzsiz olub, məhəllə camaatının hesabına tikilmişdir. XIX əsrin ikinci yarısında Gəncə qazısı olmuş Məşədi Molla İbrahim kişi Şərəfxanlıdan olmuşdur. Şərəfxanlı məscidinin nəzdində fəaliyyət göstərən ibtidai məktəbdə çoxlu sayda uşaqlar təhsil almışlar (Əhmədov, 2007, s. 178-182).

Gəncə məhəllələri içərisində Ozan məhəlləsi yerləşdiyi ərazinin genişliyinə görə xüsusilə fərqlənirdi. Onun "Aşağı Ozan" adlanan şimal hissəsi Şəhristanda, "Yuxarı Ozan" kimi tanınan cənub ərazisi isə Bayır şəhərdə böyük bir ərazini əhatə edirdi. Ozan məhəlləsi şimaldan Todanlı, Qırıxlı, qərb istiqamətindən Qırx Kilimçi, Xocalı, Xan bağı, cənubdan Bala Bağban, Təbrizli, Şöylü-bəyli, Səbzəvad, Cahara məhəllələri ilə əhatə olunmuşdu. Elxanilər dövründə sənətkarların "Ovzan" adlandırıldıqları məlumdur və ölkəmizin bir çox şəhərlərindəki "Ovzan məhəllələrinin" adı də bu sözlə əlaqələndirilir. Gəncədəki "Ovzan məhəlləsi" də sənətkarların evləri yerləşən məhəllənin adı olmuşdur. Yeri gəlmişkən qeyd edək ki, 1804-1920-ci illərə aid rusdilli arxiv sənədlərinin hamısında bu məhəllənin adı məhz "Ovzan" şəklində yazılmışdır.

Lakin bir məqamı xüsusi qeyd etmək lazımdır ki, demək olar ki, bütün türkdilli sənədlərdə bu istilah məhz "ozan" şəklində göstərilmişdir. Bu qədim tarixi toponimin adının "ovzan" sözündən deyil, qədim türk dilindəki "ozan" - el nəğməkarı, aşıq sözündən alınması ehtimalı da yüksəkdir. Nəzərə alsaq ki, Gəncəbasarda oğuz mənşəli "düyərli", "bayan", "sofulu", "tapqışlaq", "alparux", "xan yurd", "çələbiyurd" və sair bu kimi çoxsaylı tarixi məkan adlarına - toponimlərə rast gəlinir, onda «ozan»ın da məhz oğuz-türk mənşəli söz olduğu elmi cəhətdən də tam əsaslandırılan məqam kimi qəbul edilməlidir (Əhmədov, 2007, s. 189-193; Hasanov, 2018, s. 11-19; 21, s. 271).

Ozan məhəlləsi çox qədim dövrlərdən etibarən Gəncə şəhərində mövcud olmuş, bu qədim elm və mədəniyyət mərkəzi öz coğrafi yerini dəyişərkən bir çox məhəllələr kimi yeni ərazidə də şəhərin tərkibində təşəkkül tapmış, İçqalanın cənub istiqamətində yerləşmişdir. 1804-cü ilin mayında bu məhəllədə altmış ev, iki yüz beş

nəfər sakin (yüz nəfər kişi və yüz beş nəfər qadın) qeydə alınmışdır. 1916-cı il məlumatına görə isə Ozan məhəlləsində cəmi yeddi yüz doxsan iki ailənin yaşadığı məlumdur.

Məhəllə sakinləri bağçılıq, əkinçilik, sənətkarlıq (bəzzazlar, dulusçular, dülgərlər, kərpickəsənlər və digər çoxlu sayda sənətkarlıq nişanları indi də Ozan məhəlləsində yaşayan ailələrdə qalmaqdadır və bu sənət ənənələri varislik yolu ilə nəsildən-nəslə ötürülür) və qismən ticarətlə məşğul olurdular. Ozan kəhrizi və Ozan məscidi məhəllə camaatının hesabına tikilmişdi. Ozan kəhrizinin çəkilməsində əsas maliyyə işlərini Məşədi Böyük bəy, Məşədi Musa kişi, Qafarbəylilər şəcərəsinin nümayəndələri olan xeyriyyəçilər öz üzərinə götürmüşlər. 1884-cü ildə Şah Abbas məscidinin sadələşdirilmiş formasında tikilmiş Ozan məscidinə uzun müddət ərzində yerli əhali tərəfindən həm də "Hacıabbaslı məscidi" deyirdilər. Ozan məhəlləsinin yaşlı sakinlərinin söylədiklərinə görə, Hacıkənd ərazisi də Hacı Abbas kişinin mülkü olmuşdur. Ozan məscidinin onun adı ilə çağırılması məscidin əsasən bu kişinin hesabına tikildiyini göstərir. (Oxşar məqamı Sofuludakı Hacıqədimli, İmamlı məhəlləsindəki Hacısaatlı məscidləri ilə bağlı qeyd etmək olar). Tarixi mənbələrdə, ayrı-ayrı yazılı sənədlərdə XIX əsrin ikinci yarısında məhəllənin ictimai həyatında mühüm rol oynamış Yusif Hacı Abbas oğlu, İlyas Kərbəlayi Məhəmməd oğlu, Seyid Adil Əsgər oğlu kimi Ozan ağsaqqallarının adları qeyd edilmişdir. XIX əsrin birinci yarısında əvvəllər ayrıca məhəllələr olmuş Xocalı, Qırx Kilimçili məhəllələri tədricən Ozan məhəlləsinin tərkibinə daxil olmuşdur (Əhmədov, 2007, s. 189-193; Muradov, 1983, s. 136-137).

Gəncə şəhərinin tarixində mühüm əhəmiyyəti ilə seçilən qədim Zərrabi məhəlləsinin tarixi ərazisi indiki Zərrabi, M.F. Axundov, Ə.Babayev küçələri və Atatürk prospektini əhatə etmişdir. "Zərrabi" sözünün mənası «pulkəsən», «sikkə vuran» deməkdir. Mümkündür ki, zərbxananın, pulkəsilən yerin adı ilə qədim şəhərin bir məhəlləsini əhali VII-VIII yüzilliklərdə belə adlandırılmışdır. 713-cü ildə buraxılmış dirhəmin – gümüş pulun üzərində «Bi Cənzə, sənə ərbəa və tisinə» (Gəncə şəhəri, 94-cü il hicri) yazıldığını nəzərə alsaq, onda Gəncədə hələ VIII əsrin əvvəllərindən zərbxana olduğunu tam əminliklə bildirmək mümkündür. Doğrudur, xronoloji çərçivəni Abbasilər (VIII əsr), Şəddadilər (X-XI əsrlər), Eldəgizlər (XII-XIII əsrlər), Gəncə tipli XIII əsr mis pulları ilə müəyyən qədər genişləndirmək olar. Bununla belə, bütün bu dövrlərdə Gəncədə pul kəsilən yerə "Zərrabi" deyilməsinə şübhə etməyə bizim heç bir əsasımız yoxdur. Gəncənin tarixən mühüm elm, mədəniyyət mərkəzi olmaqla yanaşı, müxtəlif dövrlərdə paytaxt şəhəri kimi şöhrət tapması bir daha burada dövlətçiliyin göstərici olan pul zərbinin geniş yayıldığınızı inamla söyləmək olar (Əhmədov, 2007, s. 181-184).

Zərrabi məhəlləsi hələ erkən orta əsrlərdə qədim Gəncədə mövcud olmuş, I Şah Abbas şəhəri köçürərkən yeni ərazidə də mövcudluğunu davam etdirmişdir. Burada 1804-cü ilin mayında otuz doqquz ev, iki yüz on üç nəfər (yüz altı nəfər kişi

və yüz yeddi nəfər qadın) əhali olmuşdur. 1916-cı ildə buradakı ailələrin sayı 783-ə çatmışdır və. əhalinin əsas məşğuliyyəti sənətkarlıq (papaqçılıq, çəllək istehsalı, çəkməçilik, zərgərlik, dəyirmançılıq və s.) və ticarət olmuşdur. Hələ ərəb işğalına qədərki tarixi mərhələdə Gəncədə təşəkkül tapmış Qəssablar məhəlləsi XVIII-XIX əsrlərdən etibarən ərazi baxımından daha böyük olan Zərrabi məhəlləsinin bir küçəsini təşkil edirdi. Halbuki, Qəssablar məhəlləsi orta əsrlər dövründə şəhərin Şeytan bazarı və məscid bazarları ilə Zərrabi məhəlləsi arasındakı ərazini əhatə etmişdir və artıq XIX əsrdən Zərrabi məhəlləsinin tərkibində kiçik ərazi vahidi kimi mövcudluğunu davam etdirdi. Ehtimal etmək olar ki, ölkəmizdə islam dininin ilk təbliğatçılarından olan və VII əsrdə yaşadığı güman edilən Comərd Qəssab “Qəssablar” məhəlləsini yaradanların nəslindən olmuşdur. Bu halal, dürüst tarixi şəxsiyyətin xatirəsini əbədiləşdirmək məqsədilə onun yerli əhali tərəfindən əsrlər boyu qorunub saxlanılmış türbəsi Heydər Əliyev Fondunun yardımı sayəsində 2004-cü ildə öz tarixi məkanında Gəncə milli memarlıq üslublarımıza uyğun yenidən bərpa olunaraq inşa edilmişdir (Ахмедов, 1991, s. 3; Əhmədov, 2007, s. 181-182; Hasanov, 2018, s. 19-22, 45-51).

Buradakı ikigünbəzli Zərrabi məscidi milli memarlığımızın qiymətli nümunələrindən kimi eyvanlı məscidlər tipində inşa edilmişdir. Məscid Zərrabi ağsaqqallarından Hacı Qəzənfər Kərbəlayi ağa oğlu, Məşədi Qasım Hacıəhmədli, Əli bəy Hacıəlibəyov, Kərbəlayi Sur Abdulla oğlu və başqalarının yaxından iştirakı ilə XIX yüzilliyin axırlarında məhəllə sakinlərinin vəsaiti hesabına tikilmişdi. Zərrabidə həmçinin iki hamam – Zərrabi hamamı, Molokan hamamı, Çökək dəyirman (indiki Ə.Babayev küçəsində olmuşdur), şəhərdə “Hacı Xudu dəyirmanı” tikilmişdi. Burada XIX əsrin ikinci yarısı üçün yeganə teatr binası olan Forer şəhər teatrı da fəaliyyət göstərirdi. “Forer teatrı” Dik küçədə, Gəncə çayının sahilində (indiki C.Cabbarlı adına Gəncə Dövlət Dram Teatrının yerində) alman qotik-klassisizm üslubunda tikilmişdi. Tamaşa zalının quberniya mərkəzi olan bir şəhər üçün çox kiçik olmasına baxmayaraq, daxili hissədə akustika problemi çox uğurla həll olunmuşdu, tavana qalın məxmərdən üzlük çəkilmişdi və teatr onu inşa etdirən alman mühacirinin – Gəncə və Helenendorfda şərab zavodları və anbarlarının sahibi Forerin adı ilə uyğunlaşdırılmışdır. Lakin burada verilən tamaşaların repertuarı Avropa və rus dramaturqlarının, bəstəkarlarının əsərlərindən ibarət olduğu üçün yerli müsəlman-türklər arasında o qədər də məşhur deyildi. Tamaşaçıların əksəriyyətini hakim rus məmurları və qeyri-müsəlman əhali təşkil edirdi. Teatr öz işinə M.F.Axundovun “Hacı Qara” komediyası ilə başlamış, repertuara həmçinin “Müsibəti-Fəxrəddin”, “Şamdan bəy”, “Nadir şah”, “Ağa Məhəmməd şah Qacar” və s. əsərlər də daxil idi. O zamankı teatr həvəskarları truppası tamaşaların təşkilində və oynanılmasında əsas qüvvə idi. Gəncə müsəlman dram dərnəyinin sədri Məmmədbağır bəy Şeyxzamanov, katibi Fərhad bəy Əliyev olmuşlar. Teatrda çıxış edənlərdən Mirhüseyn İslamzadə, Mahmud İbrahimov, Məşədi Yaqub Cəfərov böyük şöhrət qazanmışdılar. Teatrın işinə türk dünyasının və müsəlman Şərqinin ilk demokratik dövləti olan Azərbaycan Xalq Cümhuriyyətinin qurucuları, görkəmli

dövlət xadimləri olmuş Ələkbər bəy Rəfibəyli, Həsən bəy Ağayev, Xəlil bəy Xasməmmədovun başçılıq etdikləri "Yelizavetpol (Gəncə) quberniyasının müsəlmanları arasında savadlılığı yayan cəmiyyət" tərəfindən yardım edilirdi (183). Cəmiyyətin katibi Mirzə Məhəmməd Axundov həm də aktyor kimi fəaliyyət göstərirdi. Teatrın işinə əsas köməkliyi isə Gəncə Müsəlman Xeyriyyə Cəmiyyəti edirdi (Əhmədov, 2007, s. 182-184; Фатуллаев, 1986, s. 234).

## Nəticə

Böyük bir tarixi dövr ərzində mövcudluğunu qorumuş və ümumi sayı 100-dən artıq olan Gəncə məhəllələrinin bir çox özünəməxsus cəhətləri vardır. Əvvəla, şəhərin ərazisi antik, eləcə də orta əsrlər dövrlərində ən azı beş dəfə coğrafi yerdəyişmə ilə səciyyələnmişdir. Bundan əlavə, istər tayfa-qəbilə əsasları ilə (qan qohumluğu, etnik, dini bilgilər), istərsə də istehsal (sənətkar bilgiləri, sənətkar ittifaqları) əlamətləri əsasında şəhərin Zərrabi, Dulusçular, Ozan, Ərəbli, Əttarlar, Şərbaflar, Boyaqçılar, Dəmirçilər, Bağbanlar, Səbzavad, Sofulu, Bağbanlar Səbzavad, Tuyuğçu, Ərəbli, Xəlfəli, Allahdad, Arazbar, Şatır-görən, Şöylü-bəyli, Xocalı, Şamlı, Qaramanlı, Şərəfxanlı, Seyidlər kimi əksər tarixi məhəllələri salınmış və uzun müddət ərzində mövcudluğunu qoruyub saxlamışdır. İlk orta əsrlərdə sənətkar ittifaqları bəzən bir şəhər çərçivəsindən çıxaraq bütöv vilayətə və ya vilayətlərə yayılırdı.

Məhəllələrin məhz bu yuxarıda qeyd olunan əlamətləri onların memarlıq-plan quruluşunu, əhatə etdiyi ərazinin sahəsini müəyyən etmiş və məhəllələr küçələrdən, bəyliklərdən ibarət olmuşdur, hər küçənin ayrılıqda və bütöv məhəllənin ümumilikdə ağsaqqalı, yaxud ağsaqqalları olurdu. Məhəllə ağsaqqalları rəsmi vəzifə deyildi və onlar nadir hallarda seçilirdi. Əksər vaxtlar tayfanın və ya əsnafların öz müdrikliyi və hörməti ilə bütün bölgənin və şəhərin rəğbətini qazanmış əsli-kökü bəlli olan yaşayış sakinləri ağsaqqal vəzifəsini yerinə yetirir, yazılmamış tayfa və sənətkarlıq qanunlarına riayət olunmasına nəzarət edirdilər. Bir qayda olaraq, onların haqq-ədaləti təcəssüm etdirən sözləri qanun hesab olunar və ona sakinlər tərəfindən ciddi surətdə əməl olunardı.

İctimai-dini, mədəni və məişət ocaqlarını inşa etmək üçün bütün məhəllənin imkanlarından istifadə olunardı. Bunun üçün məhəllə camaatından vəkillər seçilər, onlar da öz növbəsində sakinlərdən pul vəsaiti toplayar və tikintinin icrasına nəzarət edərdilər. Demək olar ki, hər məhəllənin və ya basalağın (bir neçə yaxın məhəlli birliyin) özünün məscid-mədrəsəsi, kəhrizi, su arxı, hamamı, bazarı və qəbiristanlığı olurdu.

Məhəllə camaatı imkan daxilində həmişə bir-birinə əl tutmağa, kömək göstərməyə çalışardı. Məsələn, ev tikmək istəyən ailə üçün Bağbanlar məhəlləsinin

sakinləri Bəhram bəy torpağından araba ilə gil və torpaq, Gəncə və Quşqara (Qoşqar) çaylarından qum və çay daşı gətirər, evin tikilməsində çiy kərpic ("ayıbalası", yəni monolit – E.H.) üsulundan istifadə etməklə yeni ailə ocağının yaradılmasına şərait yaratmışlar. Yeni ailə quranlar üçün də ayrı-ayrı nəsillərin, şəcərələrin nümayəndələri, qohum-əqrəbalar, qonşular iri və xırda buynuzlu mal-qara bağışlayar, yeni təsərrüfatların əsasını qoyardılar. XIX əsrin sonu - XX əsrin əvvəllərində məhsuldar qüvvələrin inkişafı, icma münasibətlərinin tənəzzülü ilə əlaqədar həmin xeyriyyə işlərini, qarşılıqlı yardımlaşma məsələlərinin icrasını Gəncə Müsəlman Xeyriyyə Cəmiyyəti və qismən şəhər Zemstvo idarəsi öz öhdələrinə götürmüşlər.

Orta əsrlər dövründə, xüsusilə də XVII-XVIII əsrlərdən etibarən Gəncə məhəllələrinin səciyyəvi cəhətlərindən biri də yaylaqlara mövsümi gedişlərin (istirahət üçün köçün) olması idi. Şəhərin yaxınlığında yerləşən saf iqlimi, sağlam bulaq suları, zəngin meşələri ilə bütün Qafqazda şöhrət qazanmış Hacıkənd şəhər sakinlərinin əsas yaylaq yerlərindən biri olmuşdur. Lakin 1874-1887-ci illərdə Yuxarı Hacıkənddə dövlətə məxsus on doqquz yaylaq evinin tikilməsi bu hissələrdə yerli əhalinin köç salmasına əngəl törətdi. Aşağı Hacıkənddə də tədricən Gəncənin ayrı-ayrı ailələri də yaylaq evləri tikdirəndən sonra bütöv məhəllələrin Hacıkəndə köçləri dayandı və bu proses hal-hazırda da yalnız müvəqqəti olaraq evləri kirayə etmə ilə səciyyələnir. Hacıkənd ilə yanaşı, Gəncə əhalisinin yaylaq yerləri həm də Xoşbulaq, Pirsultan, Zağalı, Nağarı, Muşavaq dağı, Göy yurd, Şuşa ətrafı idi. Əhali Xoşbulaq yaylağına Qurdlu körpüdən keçib Naltökən yol ilə, Göy yurda Zurnabad yolu ilə, Şuşaya Qarabağ yolu ilə getmişdir. Yaylağa mövsümi olaraq yollanan Gəncə sakinləri orada da məhəlli-icma əsasları ilə köç salırdılar. Qohumluq əlaqələri də çox zaman məhəllənin daxilində həyata keçirilirdi. Kapitalist münasibətlərinin və məhsuldar qüvvələrin inkişafı, ötən əsrin birinci yarısında siyasi həyatda baş verən köklü dəyişikliklər şəhərdə icma münasibətlərini təcəssüm etdirən məhəlli birliklərin tədricən sıradan çıxması ilə nəticələnirdi. Lakin məhəlli-icma münasibətləri xalqımızın psixologiyasında, dünyagörüşündə, məişətində, mədəniyyətində, adət və ənənələrində, bütövlükdə milli-mənəvi dəyərlərimizdə dərin izlər qoymuşdur və ictimai həyatın müxtəlif sahələrində həmin səciyyəvi əlamətlər müasir dövrümüzdə də mövcuddur.

## Açıqlama bəyanatı

Müəllif tərəfindən hər hansı potensial marağın toqquşması ilə bağlı məlumat verilməmişdir .

**Əlaqə**

**E-mail:** el-hasanov@mail.ru

## Ədəbiyyat :

Ахмедов Ф.М. (1990), Депортация Азербайджанских тюрков. Газета «Новости Гянджи», № 127 (8598). 29 ноября 1990 г., с. 3.

Ахмедов Ф.М. (1991), Вернуть подлинные имена. Газета «Новости Гянджи», № 9 (8619). 22 января 1991 г., с. 3.

Azərbaycan Respublikası Milli Arxiv İdarəsi Dövlət Arxivinin Gəncə şəhər filialı. F. 20, s. 4, iş 12, v. 3-5.

Əhmədov F.M. (2007), Gəncənin tarix yaddaşı. Gəncə: Elm, 2007, 246 s.

Hasanov E.L. (2016), Innovative Basis of historical and ethnographic research of art pottery of ancient Ganja. Mediterranean Journal of Social Sciences. Volume 7, number 1 (S1), p. 17-20. DOI: 10.5901/mjss.2016.v7n1s1p17

Hasanov E.L. (2017), About research of features of legal culture on the basis of historical-literary heritage. Information (Japan). Volume 20, number 4, p. 2289- 2296.

Hasanov E.L. (2018), Applied significance of investigation of handicrafts branches in Ganja city based on innovative technologies (Historical-ethnographic research). Prague: Vĕdecko vydavatelské centrum "Sociosféra-CZ" (Czech Republic). 110 p. ISBN 978-80-7526-323-0.

Häsänow E.L. (2018), Geschichtliche und ethnographische Merkmale der charakteristische Ornamente von traditionellen Gändschänischen angewandten Künsten. European Science and Technology (Die Europäische Wissenschaft und die Technologien): 21st International scientific conference. Munich (Germany), October 24-25, 2018, p. 11-18.

Hasanov E.L. (2021), Nizami Ganjavi 880: heritage of Ganja based on architectural and craftsmanship features of Sebzikar graveyard. International Scientific Journal Theoretical & Applied Science, Philadelphia (USA). Issue 01, volume 93, part 2, p. 144-150. Doi: https://dx.doi.org/10.15863/TAS.2021.01.93.25

Hasanov E.L. (2021), Local Ganja carpets as the samples of contemporary museum studies. Conferinţa ştiinţifică internaţională a Muzeului Naţional de Istorie a Moldovei. Istorie - Arheologie - Muzeologie. Ediția 31, 28-29 octombrie 2021. Chisinau. Chişinău: Bons Offices SRL (Moldova), p. 139-140. ISBN 978-9975-87-140-2.

Hasanov E.L. (2022), Innovative research of national wisdom in works of Nizami Ganjavi. International Scientific Journal Theoretical & Applied Science, Philadelphia (USA). Issue 01, volume 105, p. 475-481. Doi: https://dx.doi.org/10.15863/TAS.2022.01.105.36

Hasanov S.L., Hasanov E.L. (2018), Applied features of comparative technical, sociological investigation of historical and contemporary heritage of Azerbaijan. International Scientific Journal Theoretical & Applied Science. Issue 1, volume 57, part 1. p. 9-16. Doi: https://dx.doi.org/10.15863/TAS.2018.01.57.2

Həsənov E.L. (2012), Gəncə İmamzadə türbəsi. Bakı: Elm və təhsil. 268 s.

Hüseynova S.B. (1987), Gəncə şəhəri haqqında bəzi etnoqrafik qeydlər (XX əsrin əvvəlləri). Kirovabadın maddi, mədəni və ictimai həyatına həsr edilmiş II elmi konfransın materialları. Bakı, 1987, s. 37.

Muradov V.H. (1983), Orta əsr Azərbaycan şəhərləri, Bakı: Maarif. 155 s.

Mustafayev A.N. (2001), Azərbaycanda sənətkarlıq. Bakı: Altay. 232 s.

Nemət M.S. (1992), Azərbaycanda pirlər. Bakı: Azərnəşr. 104 s.

Poulmarc'h M., Laneri N., Hasanov, E.L. (2019), Innovative approach to the research of ethnographic-archaeological heritage in Ganja based on materials of kurgans. International Scientific Journal Theoretical & Applied Science. Issue 09, volume 77, part 4. p. 341-345. Doi: https://dx.doi.org/10.15863/TAS.2019.09.77.60

Smith W., Hasanov E.L. (2013), Importance of handicraft traditions in investigation of history of urban culture in Ganja. International Scientific Journal Theoretical & Applied Science. Issue 11, volume 7, p. 61-66. Doi: http://dx.doi.org/10.15863/TAS.2013.11.7.10

The dawn of Art. (1974), Leningrad: Aurora Art Publishers. 196 p.

Фатуллаев Ш.С. (1986), Градостроительство и архитектура Азербайджана XIX - начала XX века. Ленинград: Стройиздат, 456 с.
Сумбатзаде А.С. (1964), Промышленность Азербайджана в XIX в. Баку: Изд. АН АССР. 504 с.

**Məqaləyə istinad:** HƏSƏNOV Elnur. Gəncədə şəhər mədəniyyətinin öyrənilməsində məhəllələrin əhəmiyyətinə dair. Elm və İnnovativ Texnologiyalar Jurnalı. Nömrə 24, 2022. Səh. 52-66. DOI:10.30546/2616-4418.24.2022.52

## SUMMARY

# Significance of historical quarters in research of the urban culture in Ganja

**Elnur HASANOV**
*Ganja Branch of Azerbaijan National Academy of Sciences, Ganja, Azerbaijan*

This scientific work is dedicated to 2022 - the "Year of Shusha city" in the Republic of Azerbaijan. Article deals with the research of the source significance of individual residential historical quarters with centuries-old features of development as an important factor in the study on a scientific basis of our national and spiritual values, as well as the material culture of ancient Ganja city. In this research work has been examined the importance of historical quarters, which are important urban planning units in ensuring socio-economic progress in this city, achieving sustainable development in such areas as science, education, culture, based on the study of various historical sources, archival documents, and different written literature.

On the basis of archaeological, historical and ethnographic information about the past of such historical residential areas (quarters) as Sharafkhanli, Zarrabi, Duluschular, Ozan, Attarlar, Imamli, Gajarlar, Khalfali, Kharabat, Misgarlar and others, have been studied a number of important moments of the rich material and spiritual heritage of Ganja city.

***Key Words:*** Azerbaijan, material culture, Ganja, national and spiritual values, city quarters

## РЕЗЮМЕ


### О значении исторических кварталов в изучении городской культурыв Гяндже



**Эльнур ГАСАНОВ**
*Гянджинское отделение Национальной Академии Наук Азербайджана, Гянджа, Азербайджан*



Научная работа посвящается 2022-му – «Году города Шуша» в Азербайджанской Республике. В статье исследуется источниковедческое значение отдельных жилых исторических кварталов с многовековыми особенностями развития как важного фактора в изучении на научной основе наших национальных и духовных ценностей, а также материальной культуры древнего города Гянджи. В исследовательском труде рассматривается значение исторических кварталов, являющихся важными градостроительными единицами в обеспечении социально-экономического прогресса в городе, достижении устойчивого развития в таких сферах, как наука, образование, культура, на основе исследования различных историческихисточников, архивных документов, письменных литератур.

На основе археологических, историко-этнографических сведений о прошлом таких исторических жилых кварталов как Шарафханлы, Зарраби, Дулусчулар, Озан, Аттарлар, Имамлы, Гаджарлар, Халфали, Харабат, Мисгярлар и другие изучены ряд важных моментов богатого материального и духовного наследия города Гянджи.



***Ключевые слова:*** Азербайджан, материальная культура, Гянджа, национально-духовные ценности, городские кварталы